**Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması Proqramı»nın Azərbaycan Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması Proqramı»nın Azərbaycan Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin səlahiyyətlərini icra edən Kəmaləddin Fəttah oğlu **Heydərova** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Proqramın Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin səlahiyyətlərini icra edən Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 24 dekabr 1998-ci il**
**№ 45**